**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYGÜN NOFƏR qızı TALIBOVA**

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİ-TƏNQİDİNİN ƏDƏBİ PROSESDƏ ROLU

**5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | **Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə,** filologiya üzrə elmlər doktoru, professor |
| Rəsmi opponentlər: | **Rafiq Yusif oğlu Əliyev,** filologiya üzrə elmər doktoru, professor |
| | **Nərgiz Mərdan qızı Abdullayeva,** filologiya üzrə fəlsəfə doktoru |
| Aparıcı təşkilat: | **Azərbaycan Dövlət Pedoqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası** |

Müdafiə “ ____ ” __________2017-ci il saat “____”-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnistitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA- nın Mərtkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “_____” ___________ 2017-ci ildə göndərilmişdir.

| | |
|---|---|
| **Dissertasiya Şurasının Elmi katibi:** | **İsmixan Məhəmməd oğlu Osmanlı, filologiya üzrə fəlsəfə doktoru** |

# GİRİŞ

**Mövzunun aktuallığı**. Əsası XIX əsrin II yarısında M.F.Axundzadə tərəfindən qoyulan Azərbaycan ədəbi tənqidi təxminən bir əsr yarımdır ki, klassik və müasir ədəbi irsin öyrənilməsində, təbliğində müstəsna xidmətlər göstərib, ildən-ilə professionallıq səviyyəsini yüksəldib, öz nəzəri-estetik bazasını yaradıb. Mehdi Hüseyn, Hənəfi Zeynallı, Əli Nazim, Məmməd Arif, Məmməd Cəfər, Kamal Talıbzadə, Yaşar Qarayev, Şamil Salmanov kimi yüksək professionallıq qazanmış tənqidçilərimiz ədəbi prosesdə nüfuz qazanmış, tənqidçi şəxsiyyəti ədəbi prosesdə mühüm rol oynamışdır. Bütövlükdə ədəbi-estetik fikrimiz mənəvi dəyərlərimizin tədqiqində əhəmiyyətli işlər görmüşdür. Ədəbi tənqidin müxtəlif mərhələlərində onun nəzəri-estetik axtarışlarına qiymət vermək, sistemləşdirmək bu gün mühüm bir vəzifə kimi ortaya çıxır. Bu mövzunun aktuallığını şərtləndirən başlıca amildir.

Şübhəsiz ki, ədəbi tənqid ədəbi irsi tədqiq etmək prosesində həm də öz tarixini yaradıb. Diqqət etsək görərik ki, təkcə klassik irsin öyrənilməsində tənqid ədəbiyyatşünaslıqdan az iş görməyib. M.Arif, M.C.Cəfərov, K.Talıbzadə, Ş.Salmanov, Y.Qarayev tənqidçi olduqları qədər də ədəbiyyatşünasdırlar.

Bir məsələni də qeyd edək ki, M.Hüseynin, M.Arifin, M.C.Cəfərovun, K.Talıbzadənin, Ş.Salmanovun, A.Hüseynovun müxtəlif onilliklərdə yazdıqları ədəbi-tənqidi əsərlər bu gün artıq ədəbiyyatşünaslığın tədqiqat predmetidir. Müasir ədəbiyyatşünaslıq həmin materiallara yeni nəzərlərlə qiymət verir, dünənki tənqid faktını bu gün ədəbi-tarixi fakt kimi öyrənir. İstər ədəbiyyatşünaslığın, istərsə də ədəbi tənqidin zaman-zaman çağdaş dəyərləndirmələrə ehtiyacı var. Ədəbi tənqidimizin müxtəlif dövrləri kimi, müstəqillik dövrü tənqidimizin də müasir ədəbi-nəzəri meyarlarla öyrənilməsi vacib və zəruridir. Bu da mövzunun aktuallığını təyin edən cəhətlərdən biridir.

**Tədqiqatın obyekti, predmeti və problemləri**. Dissertasiyanın əsas tədqiqat obyektini müstəqillik dövrünün Azərbaycan tənqidi təşkil edir. Lakin araşdırmada müstəqillik dövrünün tənqidi canlı ədəbi proses kontekstində araşdırılır. Şübhəsiz ki, ədəbi proses bədii sistemindən, cərəyan və istiqamətindən, metod və üslubundan, janrından asılı olmayaraq müəyyən zaman hüdudunda yazıçı, tənqidçi və oxucu arasında bədii əsər zəminində baş verən və onun vasitəsilə hərəkətə gətirilən ədəbi inkişaf formasıdır. Ədəbi tənqidin nəzəri-metodoloji gücü estetik meyar özəlliyi, ədəbi prosesə təsir və onu istiqamətləndirmə imkanları ilə ölçülür. Tədqi-

qatın predmetini ədəbi tənqidin canlı ədəbi prosesə təsiri və onun hərəkətverici rolu müəyyənləşdirir. Ədəbi tənqid həm ayrıca, həm də ədəbiyyatşünaslğın digər sahələri ilə əlaqəli tərzdə öyrənilə bilər.

Bu tədqiqatın predmetini isə ədəbi tənqidin məhz canlı ədəbi proses və bədii yaradıcılıq prosesi ilə vəhdətdə öyrənilməsi müəyyən edir. Təbii olaraq tədqiqtın obyekti və predmeti onu araşdırmaya cəlb olunan-müdafiəyə təqdim edilən problemlərini diqtə edir. Onları aşağıdakı kimi çox müxtəsər olaraq belə təsnif etmək olar:

- Ədəbi proses anlayışı, onun ənənələri, nəzəri-tarixi şəxsiyyəti və estetik hüdudları;
- Sənətkar şəxsiyyəti və ədəbi proses;
- Yazıçı, əsər, tənqidçi və oxucu ədəbi proses kontekstində;
- Tənqidçi şəxsiyyəti və ədəbi proses;
- Yazıçı şəxsiyyəti və yaradıcılıq prosesi: bədii yaradıcılığın psixologiyası;
- Ədəbi prosesdə janr münasibətləri və ədəbi tənqid;
- Ədəbi tənqiddə estetik meyar və bədii mahiyyət;
- Ədəbi tənqidin ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və fəlsəfə ilə əlaqələri;
- Ədəbi tənqidin üslubları;
- Ədəbin tənqidin estetik təhlil metodları;
- Ədəbi tənqidin inkişafında mətbuatın rolu.

**Mövzunun işlənmə səviyyəsi**. Azərbaycan ədəbi tənqidi öz ənənələri, elmi konsepsiyaları, nəzəri-estetik sistemi olan ədəbiyyatşünaslıq sahəsidir. Artıq onun elmi tarixi, müxtəlif ədəbi mərhələləri, kifayət qədər ədəbi şəxsiyyətləri mövcuddur. Bir elm sahəsi kimi ədəbi tənqid tariximizin öyrənilməsi M.F.Axundzadənin tənqidi irsinin tədqiqi ilə başlayır. Şübhəsiz ki, ilk professional ədəbiyyatşünaslarımız F.Köçərlinin də, S.Mümtazın da M.F.Axundzadənin ədəbi tənqidi yaradıcılığından xəbərləri olmayıb. Daha doğrusu, onun ədəbi tənqidi məqalələrinin olduğunu təxmin etsələr də, həmin materialları əldə etməyə imkan tapmayıblar. 30-cu illərdə Əmin Abid ədibin arxivindən onları taparaq müxtəlif izah, şərh və təhlillərlə "İnqilab və mədəniyyət" jurnalının bir neçə nömrəsində dərc etdirib. Bundan sonra Ə.Nazim, M.Ə.Ələkbərli, M.Arif, M.C.Cəfərov, K.Talıbzadə və başqaları M.F.Axundzadənin tənqidi irsi haqqında müxtəlif məqalə və monoqrafiyalar yazıblar.

Bəllidir ki, bütün bunlardan sonra ədəbi tənqid tarixi yazmaq məsələsi ortaya çıxıb və K.Talıbzadə "Azərbaycan ədəbi tənqidinin tarixi" əsərini yazıb. Bu əsər ədəbi tənqid tariximizi tam əhatə etməsə də növbəti

tənqid tarixlərinin yaranması üçün stimul olub. Ş.Salmanov, X.Məmmədov, N.Şəmsizadə, Ş.Alışanlı, V.Yusifli, V.Sultanlı, T.Salamoğlu tənqid tariximizin müxtəlif mərhələləri haqqında monoqrafiya və məqalələr yazıblar.

Bütün bunlar müstəqillik dövrü tənqidimizin tarixini yaratmaq üçün zəngin material verir. İnamla deyə bilərik ki, milli tənqid ənənələrinə əsaslanan müstəqillik dövrü ədəbi tənqidi çağdaş ədəbi prosesin təşkilində mühüm addımlar atmaqla yanaşı, klassik irsin tədqiqində də yaxından iştirak edir. Müstəqillik dövrü ədəbi tənqidinin mövcudluğunu təsdiq etməsi onun elmi tarixinin yaradılmasını da zəruri edir. Elnarə Akimovanın "Azərbaycan ədəbi tənqidi milli müstəqillik illərində"(2009), "Çaqdaş poeziya və ədəbi təmayüllər" əsərləri tənqid tariximizin müəyyən bir dövrünün, onun müxtəlif problemlərinin öyrənilməsində mühüm bir ədəbiyyatşünaslıq xidməti kimi qiymətləndirilməlidir.

Milli tənqid tariximizin yaranması və təşəkkülünü sistemli şəkildə Ş.Salmanov tədqiqata gətirmişdir. O, 1998-ci ildə "Müasir Azərbaycan ədəbi tənqidinin təşkilində inkişaf meylləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Dissertasiya işinin əsasında monoqrafiyanı çapa hazırlasa da, bu ona qismət olmamışdır. Monoqrafiya alimin təxminən 50 illik ədəbi-nəzəri fəaliyyətinin yekunu kimi qiymətləndirilməlidir. Ədəbi prosesi cəmiyyətin ictimai-siyasi həyatının bir hissəsi kimi dərk edən tənqidçi onun müxtəlif mərhələlərini geniş aspektdə tədqiqata gətirmiş, müasir ədəbi-estetik dəyərlərə söykənərək, tənqid tariximizin elmi tarixini yaratmışdır.

**Tədqiqatın elmi məqsədi və nəzəri vəzifələri**. Dissertasiyanın əsas elmi məqsədi müstəqillik dövrü Azərbaycan tənqidinin ədəbi prosesdə rolunu müəyyən etməkdir. Tənqidin ədəbi prosesdə rolu ədəbiyyatşünaslığın və ədəbiyyat nəzəriyyəsinin qlobal estetik problemlərindən biridir. Yazıçı şəxsiyyəti və yaradıclıq prosesi, bədii əsərin cari ədəbi prosesdə dəyəri, əsərin bədii-fəlsəfi mahiyyətinin dövr və zaman kontekstində oxucu zövqünü nəzərə almaqla dəyərləndirmək imkanlarının müəyən edilməsi tədqiqatın məqsədlərini müəyyənləşdirir. Yazıçı, əsər, tənqidçi və oxucu münasibətlərini tənzimləyən prinsip və parametrləri aşkara çıxarmaq, ədəbi tənqiddə estetik meyarın bədii mahiyyəti obyektiv əksetdirmə imkanlarını aşkara çıxarmaqda əsas məqsədlərdən biridir. Bu əsas məqsədə nail olmaq üçün dissertant aşağıdakı tədqiqat vəzifələrini icra etməli olmuşdur:

- Ədəbi proses anlayışı müəyyənləşdirən ədəbi-tarixi və nəzəri-estetik xüsusiyyətlər müəyyənləşdirilib.
- Çağdaş ədəbi prosesdə klassik bədii-fəlsəfi ənənələrin yeri və rolu müəyyən edilib.

- Ədəbi prosesdə sənətkar və tənqidçi şəxsiyyətinin rolu formalaşdırılıb.
- Müasir ədəbi prosesin inkişafında istiqlal məfkurəsi— Azərbaycançılığın rolu təyin edilib.
- Müstəqillik dövrü Azərbaycan ədəbi prosesinin qloballaşma dövrü dünya ədəbi prosesi ilə əlaqələndirilməsində - ədəbi inteqrasiyada ədəbi tənqidin vəzifələrini müəyyən etmək istiqamətində araşdırmalar aparılıb.
- Müstəqillik dövrü tənqidinin ədəbi proseslə əlaqələri kontekstində çağdaş Azərbaycan ədəbi tənqidinin istiqamətləri müəyyən edilib.
- Ədəbi tənqidin üslub müxtəlifliyi və ədəbi prosesdə janr münasibətləri təhlil olunub.

**Dissertasiyanın elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti**. Müstəqillik dövrü ədəbi tənqidin istiqamətini, tipologiyasını tədqiq etmək ancaq tənqidin sferasında, kateqoriyalarında və təfəkküründə ədəbi irsi öyrənmək deyil, geniş mənada yanaşsaq, xalqın, dövrün, ictimai-siyasi fikrin tarixini, fəlsəfi təfəkkür tarixini üzə çıxarmaq deməkdir. Dissertasiyada müstəqillik dövrü ədəbi tənqidi Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi fikir tarixi ilə vəhdətdə öyrənilir. Dissertasiyanın elmi yeniliyinin əsas göstəricilərindən biri budur.

Ədəbi-nəzəri fikrin meyar axtarışlarında ədəbi tənqidin rolu, müstəqillik illərində ədəbi tənqidin bədiilik, poetika, struktur axtarışları, tənqidin obrazlı təfəkkür tipinin formalaşması ilə ilk dəfə bu dissertasiyada geniş kontektsdə tədqiqata gətirilir.

Ədəbi tənqid təbiəti etibarilə mütəhərrik, dəyişkən və dinamikdir. Müstəqillik dövrü tənqidi də Azərbaycanda gedən siyasi, ictimai-sosial hadisələrlə bağlı olaraq yeniləşir, müasir elmi əsaslarla təşkil olunur. Dəyişmə, yeniləşmə daha çox tənqidin ictimai hadisələrə yanaşma metodologiyasında özünü biruzə verir. Bu mənada ədəbi tənqiddəki dəyişmələr, yeniləşmələr təfəkkür hadisəsi kimi qiymətləndirilməlidir. Dissertasiyada məhz müstəqillik dövrü ədəbi tənqidinin, dünyagörüşünün təfəkkür dəyişmələri əsaslandırılıb. Burada ədəbi tənqid bədii düşüncənin ən müasir nailiyyətlərini üzə çıxaran humanitar elm sahəsi kimi təqdim olunur.

Müstəqillik dövrü ədəbi tənqidinin mühüm nailiyyətlərindən biri budur ki, milli ədəbiyyatın yeni nümunələrinin dünya prosesindəki rolunu, yerini müəyyənləşdirməyə meyllidir. Əvvəlki ədəbi mərhələlərdə ədəbi-nəzəri fikrimiz bu mühüm ədəbiyyatşünaslıq probleminə az əhəmiyyət verib. Hətta müstəqillik dövrünə qədərki ədəbiyyat tarixlərimizdə də bu

boşluq hiss olunur. Dissertasiyada bu əlaqələrin formalarına, səviyyəsinə müstəqillik dövrü ədəbi tənqidinin yanaşma səviyyəsi tədqiq olunur, milli-mənəvi dəyərlərimizin ümumbəşəri ideyalara qovuşması ədəbi-tarixi, nəzəri səpkidə öyrənilir.

Dissertasiya işinin elmi yeniliyi hər şeydən öncə mövzunun yeniliyi ilə bağlıdır. Belə ki, məhz bu mərhələni əhatə edən müstəqillik dövrü Azərbaycan ədəbi-tənqidinin ədəbi prosesdə rolu dissertasiya səviyyəsində araşdırılır. Növbəti əsas yenilik mövzuya yanaşma tərzi – tədqiqatçı yanaşması ilə bağlıdır: yeni ictimai formasiyaya keçid dövrünün ziddiyyətli bir epoxanın tənqidi irsi istiqlal məfkurəsi olan Azərbaycançı fəlsəfəsi zəminində formalaşan yeni tədqiqat metodları ilə araşdırılır. Üçüncü, ədəbi prosesə, bütövlükdə bədii irsə və yaradıcılıq prosesinə siyasiləşmiş bir anlayış kimi də, bədii-fəsəfi və poetik-estetik proses kimi də yanaşılır, ədəbiyyatın ictimai mahiyyəti-ideyası ilə bərabər, həm də poetik-psixoloji özəlliklər ilə ədəbi-tənqidin münasibətləri nəzərdən keçirilir. Dördüncüsü, sənətkar şəxsiyyəti və bədii yaradıcılıq prosesi-bədii yaradıcılığın psixologiyası kimi mürəkkəb problem ədəbi prosesin təkamülü kontekstində təhlil olunur. Beşincisi, ədəbi prosesin əsas inkişaf meylləri kontekstində üslub müxtəlifliyi, fərdi üslubi rolu və janrlardakı münasibətlər ədəbi tənqid faktları əsasında analitik təhlilin predmetinə çevrilir. Dissertasiyanın əsas elmi nəticələrindən müstəqillik dövrünün ədəbiyyat tarixinin yazılmasında, habelə ədəbi tənqidin tarixi və nəzəriyyəsinin işlənilməsində istifadə etmək olar.

Dissertasiyanın mətnindən ali məktəblərin filologiya fakültəsində müasir Azərbaycan ədəbiyyatının və ədəbi tənqid fənlərinin tədrisində vəsait kimi istifadə etmək olar.

**Tədqiqatın metodları**. Bu mövzu istiqlal məfkurəsi olan – Azərbaycançılıq fəlsəfəsinə dayaqlanan metodlarla araşdırılıb. Təhlil və tədqiqat zamanı XIX əsrdən üzübəri ədəbi-nəzəri fikrin sınağından çıxmış müqayisəli-tarixi metod kontestində nəzəri-müqayisəli araşdırmalar aparılmış, müstəqillik tarixinin milli- mənəvi tələbləri nəzərə alınmışdır. Böyük mütəfəkkir Heydər Əliyevin nəzəri irsi metodoloji əsas kimi götürülmüş, akademiklər K.Talıbzadənin, B.Nəbiyevin, İ.Həbibbəylinin, K.Abdullanın, Y.Qarayevin, N.Cəfərovun, Ş.Alışanlının, N.Şəmsizadənin, R.Əliyevin, T.Məmmədin, V.Yusiflinin, R.Qeybullayevanın, H.Qasımovun, T.Salamoğlunun və b. müstəqillik dövrünün ədəbi-tarixi prosesi və nəzəri-tənqidi fikri ilə bağlı tədqiqatlarının nəticələrindən istifadə olunmuşdur.

**Mövzunun aprobasiyası**. Dissertasiya işi Gəncə Dövlət

Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri həmin kafedranın iclaslarında müzakirə olunmuşdur.Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, eyni zamanda xarici ölkələrin müafiq nüfuzlu elmi nəşrlərində dərc etdirdiyi müxtəlif elmi məqalələrdə, onun bir sıra Beynəlxalq və Respublika səviyyəli elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi Giriş, hər biri iki yarımfəsildən ibarət üç fəsildən, Nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUMUNU

Dissertasiyanın **"Giriş"**ində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, nəzəri-metodoloji prinsipləri, elmi yeniliyi, təcrübi əhəmiyyəti, aprobasiyası və tədqiqatın quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli "**Ədəbi proses anlayışı: Strukturu və əsasa komponentləri"** adlanır. Həmin fəslin **"Sənətkar şəxsiyyəti və ədəbi proses"** adlı I yarımfəslində göstərilir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev böyük qürur hissi ilə vurğulayırdı ki, Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir: "Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da – intellektual potensialımız da vardır. Bizim potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim dahi insanlardır. Onlar bəşər mədəniyyətini əsrlərdən əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar"[1].

Dünya miqyaslı dahi siyasətçinin qədirbilənliklə xatırlatdığı və intellektual potensialımızın əsasını təşkil edən mənəvi dünyamızı yaradan

---

[1]Mehdiyev Ramiz. Əsl vətəndaş, şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr // Dünyanı heyran qoyan insan. İdeyanın müəllifi və buraxılışa məsul: Ramiz Mehdiyev.Tərtibçi redaktorlar: A.Aslanov, V.Musayev və D.İsmayılov. Bakı: Azərnəşr, 2004, s.58.

görkəmli söz, sənət ustalarımız həm də öz xüsusi özəllikləri – sənətkar şəxsiyyətləri, xarakter bütövlükləri ilə cəmiyyətin diqqət mərkəzində, maraq dairələrində olublar. Xalq öz ruhunun ifadəçisi olan sənətkarlarını həmişə iki aspektdən – şəxsiyyət və istedad prizmasından qəbul edib, meyar olaraq bu iki qütbdən dəyərləndirib. Sənətkar şəxsiyyəti və onun yaradıcı dühası həmişə qoşa qanad qismində tarixə yoldaşlıq edib. Məsələ təkcə hər hansı bir sənətkarın yüksək istedada malik olmasında, bir neçə dəyərli əsər yazmasında yox, eyni zamanda onun "bəşəri problemləri, öz xalqının problemlərini incəliyinə qədər, dərindən anlamasında, mənsub olduğu xalqı ləyaqətlə, namusla təmsil etməsindədir.

Ədəbi tənqidin böyük sənətkarlara, ustad sələflərə münasibəti böyük xələflərin təcrübəsindən qaynaqlanmalı, rişələnməlidir. Unutmaq olmaz ki, digər bütün sənət sahələrində olduğu kimi, "tənqidçi şəxsiyyəti tənqid yaradıcılığının başlıca şərtidir. Ədəbi-tənqidi əsərin əsas obrazı tənqidçinin öz şəxsiyyətidir"[1].

Təsadüfi deyil ki, görkəmli tənqidçi Yaşar Qarayev akademik Məmməd Arifin şəxsiyyət və istedadının ədəbi prosesin mənzərəsində tutduğu mövqeyindən bəhs edərkən onun adının ədəbi tənqidimizin sabit bir sanbal və ağırlıq mərkəzi, elmi nüfuz və mötəbərlik ünvanını nişan verməsini xüsusilə vurğulayırdı. Eyni zamanda tələb edirdi ki, tənqid ədəbiyyatda axtardığına özü malik olmalıdır: "Özünün üslubi yekrənglik və forma mühafizəkarlığı kimi zəifliyini dəf etmədən, müasirliyə və yeniliyə tənqidi təfəkkürün öz ritmində və tərzində nail olmadan tənqid bu vəzifəni ədəbiyyat miqyasında öz öhdəsinə götürə və həyata keçirə bilməz" [2].

Ümumiyyətlə, Y.Qarayev tənqidçi şəxsiyyətini, tənqidçi sədaqətini ədəbi tənqid müstəvisində ən önəmli göstərici, xüsusi əyar hesab edir və yazırdı ki, sabitlik tənqidçi şəxsiyyətinin tamlığı və bütövlüyü əlamətidir.

Akademik Məmməd Cəfər ədəbi-ictimai fikir tariximizin görkəmli nümayəndələrindən biri olan Mirzə Fətəli Axundzadənin şəxsiyyəti və sənətkarlıq xüsusiyyətlərindən bəhs edən "Mütəfəkkirin şəxsiyyəti" adlı məqaləsində böyük sənətkarın özünəməxsus ifadə kamilliyini, nikbinlik və prinsipiallığını, cəsarətini, təvazökarlığını xüsusilə qeyd edir, "Hünərvər şair" məqaləsində M.Ə.Sabirin vətəndaşlıq hünərini daha çox qabardırdı.

Şəxsiyyət bütövlüyü və sabitliyini yaradıcı insan üçün başlıca meyar kimi qəbul edən görkəmli ədəbiyyatşünas akademik Kamal Talıbzadə doğru olaraq qeyd edirdi ki, adətən sənətkarları əsərlərilə

---

[1]Şəmsizadə Nizaməddin. Tənqidin ədəbi prosesdə rolu. Bakı: "Tural" NPM, 2004, s.191.

[2]Qarayev Yaşar. Realizmin gücü. Bakı: Azərnəşr, 1976, s.123.

tanıyırlar. “Əsərləri onların şəxsiyyəti haqqında təsəvvür yaradır”. Bəzən də əksinə olur. Sənətkarın şəxsiyyəti onun yaradıcılığına maraq oyadır. Alimin “Sənətkarın şəxsiyyəti” kitabında oxucuya təqdim etdiyi sənətkar və tənqidçi şəxsiyyəti... “Bir yanda ötən ədəbi-tarixi dövrdən boylanan, onun bu gün üçün qiymət və təcrübəsi üzərində yüksələn sənətkar şəxsiyyəti, o biri tərəfdən də müasir ədəbi prosesin adından, onun saysız-hesabsız tələb və qayğıları ilə dünəni sorğu-suala çəkən tənqidçi şəxsiyyəti, tənqidin ədəbi prosesdə rolu və onu idarəetmə gücü bu iki şəxsiyyətin bir-birini tamamlamasındadır [1].

Təsadüfi deyil ki, tənqidçi şəxsiyyəti və onun istedadının potensial gücünün bir arada fəaliyyət göstərməsinin vacibliyi üzərində dayanan akademik Bəkir Nəbiyev bu sahədə çalışan alimlərdən tələb edirdi ki, tənqidimiz Azərbaycan professional ədəbi tənqidinin banisi M.F.Axundzadənin yeni ədəbiyyat uğrunda mübarizəsinə xas olan vətəndaşlıq ehtirasına daha dərindən yiyələnsin. O, qələm yoldaşlarından görkəmli yazıçı və tənqidçi Mehdi Hüseynə məxsus döyüşkən ruh və prinsipiallıq nümayiş etdirmələrini istəyirdi. İstəyirdi ki, tənqidimizin ideya-bədii keyfiyyət meyarı o qədər dəqiq olsun ki, müasir ədəbiyyatı yaradanlar onu həmişə əsl obyektiv münasibət kimi qəbul edə bilsinlər: “Tənqidçi ədəbi həyatla, canlı bədii proseslə yaşamalı, onun aparıcı meyllərinə, axtarış və kəşflərinə, böyük nailiyyətlərinə və qüsurlarına qarşı son dərəcə həssas olmalı, hər şeydən əvvəl, müasir ədəbi prosesi bilməyə əsaslanmalıdır”[2].

Sənətkar şəxsiyyəti və yaradıcılıq prosesindən söhbət gedərkən ilk olaraq professor Nərgiz Paşayevanın xalq yazıçısı Elçinin “Bayraqdar” kitabına yazdığı “Kədərin yaratdığı əsər...” adlı ön sözdə deyilənlər yada düşür. Xalq yazıçısı Elçinin vətəndaşlıq qayəsini, bir şəxsiyyət olaraq həyat məramını onun çoxşaxəli yaradıcılığının ideya-məfkurə prizmasından çıxış edərək ustalıqla incələyən Nərgiz Paşayevanın qənaəti hər kəsin düşündüklərini dolğun şəkildə ifadə edir ki, ağrını, acını dərindən yaşamasan bu cür əsər yazmaq, onu yüksək bədii estetik səviyyədə ortaya qoymaq mümkün deyil “Elçin şübhəsiz ki, ustadır, peşəkardır, lakin biz düşünürük ki, Azərbaycan qaçqınlarının faciəsini ürəyindən keçirməsən,

---

[1]Şəmsizadə Nizaməddin. Tənqidin ədəbi prosesdə rolu. Bakı: “Tural” NPM, 2004, s.201.
[2]Nəbiyev Bəkir. Tənqid və ədəbi proses. Bakı: Azərnəşr, 1976, s.9.

yalnız ustalığın, mahir peşəkarlığın nəticəsi olaraq "Bayraqdar" kimi emosional təsir qüvvəsinə malik bir əsər yaratmaq mümkün deyil"[1].

Ümumiyyətlə, Elçin yaradıcılığına xas olan xarakterik sənətkarlıq xüsusiyyətlərinin onun bütün əsərlərindən özünü kifayət qədər büruzə verdiyini önə çəkən professor Nərgiz Paşayevanın mülahizələri ona görə maraq doğurur ki, o, ədəbi müstəvidə sənətkar şəxsiyyəti və yaradıcılıq prosesinin bir vəhdətdə olduğu məqamda əldə olunan uğurun təminatçısına dönməsinin qüdrətini bütün dərinliklərinə qədər incələyə bilir.

Eyni analoji vəhdəti xalq şairi Vaqif Səmədoğlu ustad sənətkarımız Rəsul Rzanın şəxsiyyət və sənətkar mövqeyinin aydın üfüqləri barədə yazdıqlarında da bütün dolğunluğu ilə ifadə edir: "Anlamaq dərdi ilə yaşamış bir şair, bir alim əzəl başdan duyubmuş ki, getdiyi bu yolun mənzil başı, sonu anlanmaq nöqtəsindədir. Və bu nöqtə, eyni zamanda, son və əzəl, şairin son həddən başlanacaq əsl şöhrəti uzaqda, çox uzaqlardadır..."[2].

Maraqlıdır ki, bir qayda olaraq ədəbiyyatşünas alimlərimiz Hüseyn Cavid, Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Məmməd Araz, Söhrab Tahir, Nəriman Həsənzadə, Anar, Elçin, Sabir Rüstəmxanlı və başqa görkəmli şair və yazıçılarımızdan bəhs edərkən ilk növbədə onların şəxsiyyət bütövlüyündən və sənətkar qüdrətindən paralel şəkildə söz açırlar. Xalq yazıçısı Anar doğru qeyd edir ki, əsl sənətkar yalnız özü-özünü sənət vasitəsi ilə tanıda bilər: "Doğrudur, bəzi istisnalar da olur, bu tanınma uzun illər, hətta əsrlərlə gecikə də bilər. Belədə dünyasını dəyişmiş sənətkar bundan xəbər tutmayacaq. Amma gec-tez məhz sənət əsəri – söz, mətn, rəsm, film, musiqi özünü təsdiq edir. Əks halda belə çıxardı ki, bir əsəri dünyaya tanıda biləcək tənqidçi, alim sənətkarın özündən daha böyük təsiretmə gücünə malikdir..."[3].

Əlbəttə, sənətkarın şəxsiyyəti onun yaradıcı həyatının başlıca sütunu olmalıdır. Bəşər övladını əhatə edən aləmdə hər kəsə çox təbii və adi görünən elə xırda həyat faktları var ki, əsl sənətkarlar bu faktları güclü təsir vasitələri, şüalarla işıqlandırmalı və oxucu gözündə insan müqəddəratının təkrarolunmaz mənzərələrini yarada bilməlidir. Akademik Məmməd Arifin böyük şairimiz Rəsul Rza yaradıcılığından çıxış edərək

---

[1]Paşayeva Nərgiz. Kədərin yaratdığı əsər (Xalq yazıçısı Elçinin "Bayraqdar" povesti haqqında düşüncələr // Elçin. Bayraqdar. Redaktor: Dilsuz. Bakı: Qapp-poliqraf, 2004, s.16.

[2] Səmədoğlu Vaqif. Yaşıl rəngin işığı. Bakı: Nurlan, 2000, s.3.

[3]Anar. Əsərləri. Altı cilddə, III cild. Bakı: Nurlan, 2004, s. 675.

söylədiyi kimi, sənətkarın böyüklüyü ilk növbədə düşüncəli sənət yarada bilməsində, fikrin poeziyasını sənətə gətirməsindədir.

Xalq yazıçısı, görkəmli tənqidçi Mehdi Hüseynin bənzərsiz xarakterlərindən, parlaq şəxsiyyətlərindən bəhs edən Vaqif Yusifli 56 illik ömrünün 40 ilini heç bir təmənna güdmədən və heç bir mükafat gözləmədən böyük ədəbiyyatın xidmətinə vermiş bir insan kimi onun şəxsiyyətini, ədəbiyyata və sənətə münasibətini təyin edən əsas insani amillərdən bəhs edərkən yazır: "Əgər Mehdi Hüseynin xarakterini, şəxsiyyətini müəyyənləşdirən yığcam sözlük tərtib etsək, burada üç sözün üzərində daha çox dayanmalı olarıq. Birincisi – cəsarət, ikincisi – ləyaqət, üçüncüsü – qayğı... Sənətkar üçün ən böyük nemət mənəvi azadlıqdır... M.Hüseyn hətta səviyyəsindən aşağı duran bədii və tənqidi yazılarında belə ilhamına zor etməmiş, təzyiq göstərməmişdir. Ölümündən sonra çap edilən xatirələrini oxuyun, görəcəksiniz ki, yazıçı və dramaturq Mehdi Hüseynin ən amansız rəqibi elə tənqidçi Mehdi Hüseyn olmuşdur. Bu gün bəlkə də bir müəllifin özünü tənqid etməsi, öz yazdığı əsərdə nöqsanlar axtarması son dərəcə qəribə səslənər, amma M.Hüseyn özündə bu cəsarəti tapırdı"[1].

Yazıçı şəxsiyyəti ədəbi prosesi birləşdirən başlıca qüvvədir. O təkcə yazdığı əsər vasitəsi ilə yox, həm də məhz bu ədəbi prosesdəki sənətkar mövqeyi, sözünün nüfuzu ilə ədəbi prosesi öz şəxsiyyəti, taleyi ilə bağlaya bilir. Sənətkar şəxsiyyəti ədəbi ənənəni yaşatmaq və eyni zamanda ənənənin təsirini dərk etmək, bütün mövcud üslublarının təsirindən xilas olub öz fərdi üslubunu yaratmaq sayəsində formalaşır.

Sənətkar fərdiyyəti, sənətkar dözümü və iradəsi həmişə cəmiyyət üçün örnək, xüsusi bir maraq, ehtiyac dairəsi olub. Yazıçı iradəsinin parlaq ifadəsi olan obrazlar özündə öz yaradıcısının ən xarakterik xüsusiyyətlərini əks etdirir, bir növ o sənətkarın öz prototipi kimi sənət dünyasının yaddaşında ömr edir. "Bütün bədii əsərlərdə təkcə əks etdirilən dövrün hadisələri yox, həm də yazıçının həyata baxışı, təsvir etdiyi hadisələrə münasibəti, dünyagörüşü bu və ya digər şəkildə öz əksini tapmış olur. Yazıçı bütün hadisələrə münasibətdə öz xalqının əxlaqi prinsiplərini rəhbər tutur, milli əxlaqın, psixologiyanın, mentalitetin təmsilçisinə çevrilir" [2].

Yaradıcılıq prosesində sənətkarın istedadı, onun dünyagörüşü, həyata baxışı, süjet və kompozisiya qurmaq ustalığı, qəhrəmanlarının xarakterini açmaq bacarığı, poetik üslubunun mühüm əhəmiyyət kəsb

---

[1]Yusifli Vaqif. Tənqid yarpaqları. Bakı: Gənclik,1998, s.22-23.
[2]Yusifoğlu Rafiq. Müasir ədəbi proses və ədəbi tənqi. Bakı: ADPU, 2014, s.46-47.

etməsini şərtləndirən başlıca xüsusiyyətlərdəndir. Bununla yanaşı, mənsub olduğu millətin, milli-mənəvi dəyərlərinin, azadlıq istəklərinin, yaradıcılıq əzminin ifadəçisi olan hər bir istedadlı sənətkar öz zəmanəsinin (eyni zamanda da bütün zamanların) tarixi şəxsiyyətinə çevrilir. XII əsr böyük Azərbaycan şairi Nizami Gəncəvi təkcə söz adamlarının yox, eyni zamanda da zəmanəsinin ən qüdrətli şah və sultanlarının birmənalı şəkildə qəbul etdikləri böyük sənətkar və şəxsiyyət idi. Onun şəxsiyyəti, sənətini, yaradıcılığı şəxsiyyətini tamamlayır. Bununla da şairin, sözün və şəxsiyyətin məqamını ən ali mənsəb sahiblərinin önündə ucaldır, ona böyük hörmət gətirirdi. Bu mənada professor Rafiq Yusifoğlu tamamilə haqlı bir mülahizə ilə çıxış edir ki, bədii əsərin strukturunda mühüm, aparıcı yer tutan qəhrəmanlardan biri də müəllifin özüdür.

Doğrudan da eyni həyat hadisələrindən istifadə edən müxtəlif üsluba ədəbi təcrübəyə, bədii təxəyyülə malik sənətkarların əsərlərinin bədii forma, üslub, digər sənətkarlıq xüsusiyyətləri etibarilə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənməsinin səbəblərini ilk növbədə sənətkar xarakterinin özünəməxsus ayrıntılarında, sahib olduqları fərdi istedad üfüqlərinin ifadə etdiyi çevrədə aramaq lazımdır. Azərbaycan ədəbiyyatının şəxsiyyət etalonlarından olan Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rəhimov, İlyas Əfəndiyev, Anar, İsa Muğanna, Elçin kimi nümayəndələri təkcə yaradıcılıqları ilə yox, həm də bənzərsiz xarakterləri, şəxsiyyət özəllikləri ilə oxucu yaddaşında yaşayır, vətəndaşlıq etalonu kimi qəbul edilirlər. Süleyman Rəhimovun həqiqətə, insan haqlarına tapınan sənətkar vicdanı, düşüncəsi böyük istedadla yaratdığı Mehman obrazında yaşayır. Görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin həm böyük sənətkar, həm də parlaq şəxsiyyət özəllikləri "Bir gəncin manifesti" əsərinin əsas obrazlarından olan Sona ananın "İtə ataram, yada satmaram" qürurunda orijinal və cəlbedici görünür. Sona ananın böyük vətəndaş heysiyyətinin, bənzərsiz vətəndaşlıq duyğusunun ifadəsi olan etirazı əslində görkəmli yazıçının öz daxili dünyasının, sənətkar böyüklüyünün, yazıçı xəlqiliyinin parlaq təcəssümü idi. Sona obrazı əslində qüdrətli sənətkarın qəlbinin, vicdanının səsi, ifadəçisidi. Ona görə də Mir Cəlal böyük yazıçı qələmi, insafı heç vaxt millətinə məxsus, millətinin milli mədəniyyətinin ölməz bir hissəsi olan xalçanın yad, millətinə yabançı bir gəlməyə satmağa razı olmayan ədəbi qəhrəmanının yanındadı. Yalnız milli dəyərlər daşıyıcısı olan böyük sənətkar belə qüdrətli obraz yarada bilər. Oxucuların Sona anaya olan sevgisi əslində Mir Cəlal sənətkarlığının, Mir Cəlal milliliyinin yetərincə parlaq olmasına olan dərin sayğıdan qaynaqlanır.

Fərqli ədəbi üsluba malik sənətkarlar ədəbi yaradıcılıq mühitini öz bənzərsiz sənət əsərləri ilə zənginləşdirirlər. Bu mənada sənətkar ədəbi prosesin yaradıcısı olduğu kimi, ədəbi proses də sənətkarı formalaşdıran mühitdir. Bu prosesdə meyar faktoru başlıca, aparıcı mövqeyə malikdir. "Meyar şəxsiyyətdir, şəxsiyyət yoxdursa, "mən", milliyyət yoxdursa, xalq yoxdur. Aşkarlıq, demokratiya, vicdan... – hamısı "mən"dən kənarda qalanda yox, "mən"də birləşəndə, onunla bərabərləşəndə, "mən" olanda şəxsiyyət əmələ gəlir"[1].

Sənətkar şəxsiyyətini və yaradıcılığını şərtləndirən başlıca amil yaradıcılıq ehtirası, yaradıcılıq şövqüdür. Böyük sənətkarların yaradıcılıq palitrasını bir qayda olaraq həmişə yüksək yaradıcılıq ehtirası zənginləşdirib. Böyük sənətkarlar dünyanın seçmə adamları kimi dəyərləndirilir. Onların ədəbi irsi və şəxsiyyət, xarakter özəllikləri tarixin bütün dövrlərində milli dəyər meyarı kimi əziz tutulub. Bu gün Azərbaycan cəmiyyəti üçün xalq şairi Səməd Vurğunun möhtəşəm yaradıcılığı ilə bərabər, bu yaradıcılığın böyük miqyasında heç də ikinci dərəcəli yer tutmayan, əksər halda önə keçən şəxsiyyət, xarakter özünəməxsusluğu sevilə-sevilə anılır. Xalq şairləri Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Söhrab Tahirin, xüsusilə Bəxtiyar Vahabzadənin bədii yaradıcılığı ilə bərabər şəxsiyyət fenomenləri də bütövlük etalonu kimi xalqın silinib-pozulmaz yaddaşında yer alıb. Təsadüfi deyil ki, xalq arasında İsmayıl Şıxlının, Mehdi Hüseynin, Hüseyn Arifin, Qabilin, Əli Vəliyevin və başqalarının hər kəsə doğma, unudulmaz portret cizgiləri barədə dildən-dilə düşən hekayətlər mövcuddur. Ümumiyyətlə, xalqımızın genetik yaddaşında böyük sənətkarların, xüsusilə də şair və yazıçıların şəxsiyyətinə, sənətkar qüdrətinə xüsusi bir maraq, ehtiram duyğusu hakimdir. Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı taleyüklü məsələlərin çözülməsinə zəruri ehtiyac yarananda ilk növbədə görkəmli sənətkarlarına, xüsusilə də şair və yazıçılarımıza üz tutublar. Zorla sürükləndiyimiz Qarabağ savaşının ilk günlərində, hələ Topxana harayının yenicə kükrədiyi bir vaxtda Azərbaycan həqiqətləri ilk olaraq görkəmli sənətkarlarımızın meydandan ucalan səsilə dünyaya bəyan oldu. Meydan hərəkatının ilk günlərində Xəlil Rza Ulutürkün, Bəxtiyar Vahabzadənin, Sabir Rüstəmxanlının, Yusif Səmədoğlunun və başqalarının simasında əsl Azərbaycan ziyalılığının mövqeyi ortaya qoyulmuşdur.

---

[1]Qarayev Yaşar. Meyar – şəxsiyyətdir. Bakı: Yazıçı,1988, s.11.

Şəxsiyyət, xarakter bütövlüyü sənətkar qüdrəti ilə uzlaşmayan söz adamı bütün hallarda ədəbi tənqid və ictimaiyyət üçün eyni mövqedən dəyərləndirilmir. Türk şairi Nəcib Fazil Qısakürək sənətkarın ədəbi dühası ilə ictimai baxışlarının bir nöqtədə kəsişməsini yaradıcılıqda əsas meyar kimi qəbul edirdi: "Məni fikir və siyasətə yönəlmiş sayanlar şeir yerinə gücünü nəsrə xərclədiyimi görmədikdənmi – nədir qaba bir hökmə gəldilər: "Bitdi, yazıq oldu şair!". Bunlar görmürlərmi ki, mənim fikir və siyasət yolu ilə gerçəkləşməsi üçün savaşdığım şey birbaşa şeirimin möhtac olduğu insan və cəmiyyət iqlimidir. Mən belə bir iqlimin inşası cəhdinə bağlıyam. Əsl şeir anlayışım tələb edir"[1].

I fəslin "**Bədii əsər, tənqidçi və oxucu**" adlı II yarımfəslində göstərilir ki, yazıçı, tənqidçi ilə oxucu fenomeni ədəbi prosesin təşkilində, inkişafında mühüm rol oynayır. Yazıçı həyat hadisələrini saf-çürük edir, bədii təxəyyülündən keçirir, həyat hadisəsini "sənət dilinə" çevirir. Yazıçı öz təhkiyəsində tam sərbəstdir. Sujet, həyat hadisəsi, kompozisiya ona öz ideyalarını həyata keçirməkdə yardımçı rolu oynayır. Əsərin məzmunu yazıçı idealının, ideyasının daşıyıcısına çevrilir. Bu prosesdə şübhəsiz ki, tənqidin də özünəməxsus funksiyası var. Tənqid ədəbi düşüncə hadisəsi olan bədii əsəri elm dilinə çevirir, əsərin janr, üslub, sənətkarlıq, dil, məzmun ideya komponentlərini elmi əsaslarla təhlil edir, yazıçı ilə oxucuların arasında körpü rolunu oynayır.Yazıçı, tənqidçi ilə oxucu fenomeni ədəbi prosesin təşkilində, inkişafında mühüm rol oynayır.

Bəllidir ki, bu prosesdə ədəbi tənqid sadəcə olaraq qramafon rolunu oynamır, əsərin məzmununu nəql etməklə kifayətlənmir, ancaq yazıçı ideyasının arxasınca getmir. Əslində tənqidçinin öz elmi konsepsiyası, bədii yaradıcılıq haqqında elmi texnologiyalar sistemi var. Yazıçı kimi tənqidçi də öz ideyalarından, bədii-estetik konsepsiyasından çıxış edir. Bu kontekstdə bədii material tənqidçiyə öz elmi konsepsiyasını ortaya qoymaqda yardımçı olur. A.S.Puşkin yaradıcılığının sirlərinin açılmasında Belinski hansı rol oynayıbsa, C.Cabbarlı yaradıcılığının tədqiqində M.Arif, Nizaminin irsinin öyrənilməsində H.Araslı, H.Cavid, C.Məmmədquluzadə yaradıcılığının tədqiqində akademik Isa Həbibbəyli həmin rolu oynayıb. Eyni zamanda oxucu üçün də tənqidçi rəyi etalona çevrilib.

Bütün dövrlərdə olduğu kimi, müstəqillik dövründə də əsər tənqidçi-oxucu cütlüyü ədəbi prosesi yaradan, təşkil edən tərəflər kiim çıxış edir. Rahid Uluselin "Qloballaşma çağında tənqidi düşüncə mədəniyyəti"

---

[1]Nəcib Fazil Qısakürək. Şeirlərim və şairliyim. Ədəbiyyat qəzeti, Bakı, 2015, 11 aprel, s.10.

sərlövhəli məqaləsində bu məsələ fəlsəfi-ədəbi kontekstdə tədqiqata gətirilib. Tənqidçi belə fikirləşir ki, "Tənqidi düşüncənin daxili impulsları təkcə ədəbiyyata, bədii sözə və ideyaya estetik münasibət duyğusundan irəli gəlmir, o həm də sosial-mədəni mühitin iradə və düşüncəsində doğur"[1].

Göründüyü kimi, Rahid Ulusel "Sosial-mədəni mühitin iradə və diqtəsi"ni həm bədii əsər, həm də tənqidçi üçün meyar hesab edir. Bədii əsərdə tənqidçi irsi də ictimai mühitlə bağlıdır, ictimai mühit isə ayrı-ayrı fərdlərin, oxucuların məcmusudur. Bədii söz, bədii sənət ən əvvəl oxucunu tapmalı, daha sonra ictimai rəyə təsir göstərməlidir. Bu istək və zərurət isə professional tənqidçi fəaliyyətini tələb edir. Əsər, tənqidçi, oxucu üçbucağından biri axsayanda, geri qalanda ədəbi prosesdə natamamlıq, yarımçılıq kompleksi yaranır. Doğrudan da əgər yaxşı, mükəmməl bədii əsərlər yaranmasa, ədəbi tənqid üçün xammal olmaz, oxucu isə yaxşı əsər intizarında qalar. Bu barədə Vaqif Yusifli yazır: "Çox acınacaqlıdır ki, son 15-20 ildə tənqiddə öz kassasından, əgər belə demək mümkünsə, adındakı mahiyyətindən uzaqlaşmaq meyli açıqca hiss olunur. Ədəbi prosesdəki enişlər, yoxuşlar, ziddiyyətli hallar, kütləyə sırınan bədii əsərlər, mahiyyətinə varılmaqdan ötən yetmiş ilin ədəbiyyatını inkar cəhdləri, klassikləri gözdən salmaq meylləri sanki tənqidi düşündürmür"[2].

Vaqif Yusifli məqaləsində ədəbi tənqidə daim sayıq olmağa, zəif əsərlərin oxucu zövqünü korlamasına imkan verməməyə çağırır. Zəif əsəri əgər zəif tənqidçi tərifləyirsə, bu halda hansı oxucu zövqündən danışmaq olar? Bu suala Rahid Ulusel başqa bir sualla müraciət edir. Tənqidin daxili strukturu metodoloji problemləri ilə ciddi əsərlər meydana çıxmasa da, onun bəzi ənənəvi, spesifik xüsusiyyətlərinin yeni çalarlar kəsb etməsi və kəsb etməli olduğu diqqət mərkəzində olmuşdur. Cəmiyyət, ədəbiyyat, tənqid üçbucağında sonuncu öz funksiyasını yerinə yetirə bilirmi?

Bu suala cavab olaraq tənqidçi bildirir ki, son 15-20 ildə ancaq tənqidin mahiyyətindən, vəzifəsindən uzaqlaşmasından danışmaq olar. Belə ki, yazıçı oxucuya bəsit əsərlər sırıyır, tənqidçi isə bu zəif əsərləri göylərə qaldırır. Bu prosesdə ədəbi yaradıcılığın sağlam yolda olmasını düşünmək mümkün deyil.

Ədəbi tənqiddə əsər – tənqidçi – oxucu üçbucağı bir-biri ilə əlaqədə, vəhtətdədir. Bunlardan biri olmadan ədəbi prosesi təsəvvür etmək

---

[1]Ulusel Rahid. Qloballaşma çağında tənqidi düşüncə mədəniyyəti // "Azərbaycan" jurnalı, 2004, №5, s.179.
[2]Yusifli Vaqif. Tənqid yarpaqlar. Bakı: Gənclik, 1998, s.112.

mümkün deyil. Əvvəl bədii əsər yazılır, mətbuat və yaxud nəşriyyat onu yayımlayır, oxucular onu oxuyur və ədəbi tənqid tərəfindən dəyərləndirilir. Beləliklə, ədəbi proses anlayışı yaranır.

Ədəbi təcrübədən məlumdur ki, bəzən elə hallar da olur ki, hər hansı müəllifə, onun yaradıcılığına olan oxucu və tənqidçi münasibəti heç bir halda bir-birini tamamlamır, biri o birinin əksinə olur. Məsələn, kifayət qədər oxucu auditoriyası qazanmış yazıçı Əlibala Hacızadənin əsərləri demək olar ki, heç vaxt ciddi tənqidin predmetinə çevrilə bilməmişdir. Belə deyək ki, dövrün ciddi problemlərini əsl sənət əsəri nümunəsində ortaya qoyan "Aran" (Sabir Əhmədli), "Dəyirman" (Mövlüd Süleymanlı), "Daş evlər" (S.Səxavət) əsərlərinə nisbətən Ə.Hacızadənin "Əfsanəsiz illər", "İtkin gəlin" kimi əsərləri öz zamanında daha geniş şöhrət tapmışdı. Bu əsərlərə ciddi tənqidçi və ciddi oxucu münasibəti haradasa kəskin şəkildə fərqli idi. Ötən əsrin 80-90-cı illərində ədəbi tənqid Ə.Hacızadənin adı çəkilən əsərlərini, necə deyərlər, elədə ciddiyə almadığı üçün daha çox bu barədə susmağa üstünlük verdi. Əlbəttə, bu prosesdə həmin əsərlərin oxucular arasındakı populyarlığının da xüsusi yeri bar idi. Eyni münasibəti xalq yazıçısı Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərinə olan baxışlarda da özünü göstərməkdəydi. Ədəbi tənqid daha çox görkəmli yazıçının "Ağ liman", "Dantenin yubileyi" əsərlərindən ədəbi hadisə olaraq bəhs etməkdəydi. Oxucu auditoriyası isə "Beşmərtəbəli evin altıncı mərtəbəsi"nə daha çox meylli görünürdü. Fikrimizcə, ədəbi tənqid bu prosesdə də eynilə Ə.Hacızadənin əsərlərinin təhlilinə bəslənən münasibət yolunu tutdu. Daha çox "Ağ liman"dan, "Dantenin yubileyi"ndən söz açdı. "Beşmərtəbəli evin altıncı mərtəbəsi"nin isə əsl qiymətini vermək üçün tənqid xüsusi fəallıq göstərə bilmədi.

Ədəbi tənqidin tarixi və təcrübəsi göstərir ki, adətən yazıçılar tənqidi sevmir, hətta ona qarşı mübarizə aparırlar. Məsələn, rus ədibi A.P.Çexov, amerikalı yazıçı E.Heminquey özləri haqqında məqalələri oxumurdular. Fransız yazıçısı və nəzəriyyəçisi J.Renar "Tənqidçi kimdir?" sualına "Öz rotasına atəş açan əsgər"-deyə cavab verirdi. Belə münasibət ədəbi prosesdə təşəxxüslü bir tənqidolunmazlıq mühiti yaradır ki, bu da ədəbiyyatın tarixi inkişafına mane olur,müasir ədəbi tənqidin sağlam əsaslarla yaranmasına maneəçilik yaradır.

Umummilli lider Heydər Əliyev təkcə ədəbi tənqid, onun ədəbi prosesdə rolu və estetik funksiyaları barəsində nəzəri mülahizələr söyləməklə kifayətlənmir, həm də yeri gələndə obyektiv tənqidçi kimi öz mövqeyini bildirməyi sevir və bacarırdı. Məsələn, 12 aprel 1998-ci ildə xalq şairi Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" dramının

tamaşasına baxandan sonra səhnə arxasında şairlə ümummilli lider arasında belə bir mükalimə olub. Heydər Əliyev deyib: "Bilirsiniz bu əsərin xüsusiyyəti bundan ibarətdir ki, burada hansı rolun baş rol olduğunu demək çətindir.

Heydər Əliyev: "Elə sən də həmişə həmin o sosializm realizmi əsasında yazmısan. İndi o yazdıqlarını niyə yaddan çıxarırsan? Yox, elə deyildir. Niyə elə deyirsən? Məsələn Şekspirin əsərlərində - "Hamlet", "Otello" və başqalarında baş rollar var. Sən burada bir az səhvə yol verdin. Sənin bu əsərində bilmirəm kimi baş rolun icraçısı hesab etmək olar. Hamısı baş roldur"[1].

Çağdaş ədəbi mühitdə yazıçı, şair və tənqidçi münasibətinə oxucuda narahatçılıq yaranmasının başlıca səbəbi çox vaxt tənqidçinin bədii mətni bir kənara qoyub, əsasən müəllifin insani dəyərlərindən, şəxsiyyət özəlliklərindən uzun-uzadı söz açmasındadır. Ən ağrılı məqam isə ondan ibarətdir ki, tənqidçi çox vaxt tərifinə girişdiyi əsərin özündən belə xəbərsiz olur, sadəcə söz xətrinə söz yazır. Ona görə də ədəbi tənqidin elmi əsaslardan uzaqlaşaraq, təhlildən, ədəbi dəyərləndirmədən qaçaraq çox vaxt ümumi, təqdiredici mülahizələrlə kifayətlənməsi oxucuda məyusluq yaradır. Oxucu konkret olaraq əvvəlcədən bilir ki, filan tənqidçi filan yazıçıdan və ya əsərdən nədən ötrü xüsusi canfəşanlıqla bəhs edir, ədəbi ictimaiyyətin qəbul etmədiyi əsərləri hansı səbəbdən müsbət yöndən dəyərləndirir.

Doğru qənaətdir ki, ədəbi prosesdə üç mühüm tərəf var: Yazıçı, tənqidçi və oxucu. Bu üç tərəfin bir-biri ilə qarşılıqlı əlaqəsi ədəbi prosesin dəyərini müəyyənləşdirən amillərdəndir.

Dissertasiya işinin **"Ədəbi proses və tənqidin yeni meyar axtarışları"** adlı II fəslinin I yarımfəsli "**Estetik meyar və bədiilik amili**" adlanır. Bu yaarımfəsildə totalitar sovet rejimi süquta uğradığı bir dönəmdə həyatın bütün sahələrində olduğu kimi, ədəbi tənqid sahəsində müəyyən deformasiyalar özünü büruzə verməyə başladı. Bu mərhələnin başlıca mənzərəsi ondan ibarət oldu ki, ilk növbədə müxtəlif nəsilləri təmsil edən tənqidçilər arasında tənqid meydanını tamamilə tərk edib təsviri ədəbiyyatşünaslığa və ya publisistikaya keçənlər oldu. Necə deyərlər, ədəbi tənqid ədəbi prosesdə aparıcı rolunu elə bil ki, dincə qoyaraq bir tərəfə çəkildi. Az sonra Asif Əfəndiyev, Yaşar Qarayev, Aydın Məmmədov,

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar. Tərtib edəni: V. M. Quliyev. Bakı: Ozan, 1999, s.468.

Nadir Cabbarov, Mürşüd Məmmədov, Şamil Salmanov kimi peşəkar tənqidçilərin vəfatı səbəbindən demək olar ki, ədəbi tənqidin mötəbər sütününda hiss ediləcək dərəcədə çökmələr başlandı. Eyni zamanda da çağdaş tənqidimizin fəlsəfi-intektual tipinin yaradıcılarından olan Akif Hüseyli, Kamil Vəliyevin, Kamal Abdullanın və başqalarının pedaqoji sahədə fəaliyyət göstərmələri, sonuncunun bədii sahəyə meyl etməsi, Rəhim Əliyev, Nizami Cəfərov, Nizaməddin Şəmsizadə, Şirindil Alışanlı və başqalarının daha çox nəzəriyyə sahəsində öz işlərin davam etdirmələri peşəkar ədəbi tənqidin meydanını bu sahədə hələ yetərincə püxtələşməmiş, mötəbər söz sahibi olmayan gənclərə vermiş oldu.

Müstəqillik dövründə ədəbi tənqidin meyar axtarışları ilk növbədə azərbaycançılıq düşüncəsinə əsaslanıb ədəbiyyatın yönümü düzgün istiqamətləndirməyə yönəlib. Azərbaycançılıq düşüncəsi milli məfkurə anlayışının, milli kimlik mücadiləsinin istiqamətverici proqramı kimi bədii ədəbiyyatımızın başlıca mövzu mənbələrindən birinə çevrilib. Ədəbi tənqid ilk növbədə bu vacib ideologiyanın parlaq təntənəsinə xidmət edən əsərlərin bədii dəyərini, ideya istiqamətlərini düzgün qiymətləndirməsi, bu yöndə yorulmaz təbliğatçı olmalıdır. Ədəbi tənqid öz meyar axtarışlarını milli heysiyyət anlayışının diqtə etdiyi dəyərlər zəminində inkişaf etdirməlidir.

Müstəqillik dövründə ədəbi tənqidin meyar axtarışlarının başlıca istiqamətlərindən biri də təbii ki, sovetlər dönəmində ideoloji basqılara məruz qalmış ədəbi örnəkləri, görkəmli sənətkarları yeni, müstəqil dövlətin verdiyi imkanlar prizmasından araşdıraraq dəqiq və həqiqi qiymətini verməkdən ibarətdir. Görkəmli sənətkarlarımız Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin, Almas İldırımın, Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rüstəmin və başqalarının yaradıcılığına müstəqillik dövrünün meyarları ilə yanaşsaq, ötən əsrin 20-ci illərindən üzübəri müstəqillik dövrü ədəbiyyatımıza qədər ədəbi irsin gerçək təsnifatını, ideya-bədii məfkurə istiqamətini düzgün, müasir baxışlarla dəyərləndirmək müstəqillik dövr ədəbi tənqidimizin başlıca meyarlarından biri olmuşdur. Eləcə də ədəbi tənqid bu gün Nizami Gəncəvi, Füzuli, Seyid Əzim, Sabir, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Əbdürrəhim bəy Haqverdiyev və başqalarının yaradıcılığını dövrün ictimai-siyasi mahiyyəti kontekstində qərəzsiz, hər cür subyektiv yanaşmadan uzaq bir tərzdə dəyərləndirmək səlahiyyətinə sahib çıxmalı, klassik mirası müasir, yeni ictimai-siyasi prosesin gözüylə araşdırmalı, inandırıcı arqumentlərlə qiymətləndirməyi bacarmalıdır.

Azərbaycan ədəbiyyatının, o cümlədən, ədəbi tənqidin böyük ənənəsi var. İstər sənətkar yaradıcılığı və yaradıcılıq prosesi, istər bədii əsər, tənqidçi və oxucu, istərsə də tənqidçi şəxsiyyəti və tənqidin üslubu istiqamətindən məsələlərə münasibət bildirməli olsaq, ilk növbədə nəzərə alınmalıdır ki, müstəqillik dövrünün ədəbiyyatı dünya ədəbi prosesinin davamı kimi özünün yeni inkişaf mərhələsini yaşamaqdadır. Ədəbi tənqidin meyar axtarışları müstəqillik dövrünün tələbləri kontekstindən bəhrələnir, bu dövrün parlaq ideyalarına xidmət edən əsərlərin və müəlliflərin yanında olması ilə öz tarixi missiyasını şərəflə yerinə yetirir.

Dissertasiya işinin II fəslinin "**Tənqidçi şəxsiyyəti və ədəbi proses**" adlı II yarımfəslində ədəbi tənqidin bütün dövrlərdə üzərinə düşən missiyanı layiqincə yerinə yetirməkdən ötrü dərin elmi-nəzəri, fəlsəfi-estetik hazırlığa malik olmasından, həyatın inkişaf qanunauyğunluqlarından baş çıxarmalı olmasından, ədəbi axtarışın istiqamətini əvvəlcədən müəyyənləşdirməyi bacarmasından bəhs edir. Bu prosesdə tənqidçi şəxsiyyətinin bütölüyü, onun yaradıcı prosesə bir amal, ideya mənbəyi olaraq bağlılığı, qətiyyət və obyektivliyi başlıca rol oynayır. Məhz yüksək elmi-nəzəri biliyə, intellektual ümumiləşdirmə və qiymətləndirmə gücünə malik olan, obyektivlik hissini bütün yanaşmalarından uca tuta bilən tənqidçilər müasir ədəbi prosesin inkişaf meyllərini, qanunauğunluqlarını, uğur və nöqsanlarını dərindən təhlil edib sistemləşdirə bilər. Tənqidçi sözü öz mötəbər, inandırıcı həqiqəti ilə həmişə ədəbi prosesin dəqiq qiymətini verə bilməli, heç bir halda üzgörəlik etməməli, eyni zamanda layq olmayan şişirtmələrə yol verməməlidir.

Bədii ədəbiyyatın ayrılmaz üzvü hissəsi olan ədəbi tənqidin mövqelərini bütün yönlərdən qorumalı və inkişaf etdirməli olan tənqidçilər ilk növbədə ədəbi mətnə heç bir halda hesablanmış, yarınma prinsiplərindən yanaşmamalı, yalnız yaradıcı prosesin öz ehtiyac və tələblərindən yanaşmaqla təhlil aparmalıdırlar. Tənqidçi öz ağıllı və dəqiq, heç bir tərəddüdə yer qoymayan mülahizələri ilə yazıçının yaxın köməkçisi, dostu və xeyirxahı olmalı, yeni, müasir ədəbi prosesin ümumi mənzərəsini yaratmağıa nail olmalı, həm də yeni yaranan bədii əsəri qavramaqda, müəllifin başlıca məramını, əsərin ideyasını, onun sənətkarlıq xüsusiyyətlərini başa düşməkdə oxucuya kömək etməlidir.

Təsadüfi deyil ki, tənqidçi şəxsiyyəti və onun istedadının potensial gücünün bir arada fəaliyyət göstərməsinin vacibliyi üzərində dayanan akademik Bəkir Nəbiyev bu sahədə çalışan alimlərdən tələb edirdi ki, tənqidimiz Azərbaycan professional ədəbi tənqidinin banisi M.F.Axundzadənin yeni ədəbiyyat uğrunda mübarizəsinə xas olan

vətəndaşlıq ehtirasına daha dərindən yiyələnsin. O, qələm yoldaşlarından görkəmli yazıçı və tənqidçi Mehdi Hüseynə məxsus döyüşkən ruh və prinsipiallıq nümayiş etdirmələrini istəyirdi. İstəyirdi ki, tənqidimizin ideya-bədii keyfiyyət meyarı o qədər dəqiq olsun ki, müasir ədəbiyyatı yaradanlar onu həmişə əsl obyektiv münasibəti kimi qəbul edə bilsinlər: "Tənqidçi ədəbi həyatla, canlı bədii proseslə yaşamalı, onun aparıcı meyllərinə, axtarış və kəşflərinə, böyük nailiyyətlərinə və qüsurlarına qarşı son dərəcə həssas olmalı, hər şeydən əvvəl, müasir ədəbi prosesi bilməyə əsaslanmalıdır"[1].

Vaxtilə xalq yazıçısı Süleyman Rəhimov yazırdı ki, həqiqi tənqidçi ilk növbədə yaradıcılıq işinin sirlərinə bələd olmalı, bəlkə də yazıçının, müəllifin bilmədiklərini bilməli və açıb deməlidir. "Yəni, yazıçının hissə qapılıb yazdığı sətirləri şüurlu olaraq mühakimə etməli, dərindən-dərinə təhlildən keçirib, dəyərli əsərlərin qiymətli cəhətlərini xəsislik göstərmədən açmalıdır... Müəllif-yazıçı tənqidçini oxuyanda burada tozsuz-ləkəsiz bir güzgü kimi, özünü, öz yaradıcılığını görməlidir, seçmədiklərini seçməlidir"[2].

Əgər S.Rəhimovun "həqiqi tənqid yazıçını öz yaradıcılığı üzərində düşündürməlidir, yəni, tənqid bədii yaradıcılıqda ötərgi təsir deyil, əbədiyaşar təsir buraxmalıdır"[3] fikrini də buraya əlavə etmiş olsaq, aydın şəkildə görərik ki, tənqidçi işinin bütün vacib, zəruri məsələləri bu yığcam fikirlərdə öz ifadəsini bütün dolğunluğu ilə tapıb. Ancaq tənqidçi əməyinin və ədəbi tənqidin daşımalı olduğu missiya ətrafında mülahizələri davam etdirəndə baxıb görürsən ki, bu hələ hamısı deyil. Hər şeydən əvvəl bir başlıca zərurət, faktor da var ki, tənqid və ədəbiyyatşünaslıq ədəbi prosesi qiymətləndirəndə milli və bəşəri problemlərin istiqamətini, ictimai-tarixi mərhələlərindəki təmayülünü aydınlaşdırmadan onun axarını böyük ideallar məcrasına yönəldə bilməz.

Ağıllı tənqidçi bir tərəfdən yazıçıya yol göstərməli, digər tərəfdən yazıçı ilə oxucu arasında körpü ola bilməsi həqiqəti bütün zamanlarda əsl tənqidçinin inancına çevrilməlidir. Yazıçı tənqidçinin mülahizələrini heç bir halda onunla oxucu arasındakı birbaşa əlaqəyə mane olan lazımsız qüvvə kimi qiymətləndirməməlidir. Tənqidçi bütün hallarda elmi-nəzəri,

---

[1]Nəbiyev B. Tənqid və ədəbi proses. Bakı: Gənclik, 1976, 184 s.

[2]Rəhimov Süleyman. Pak vicdanla (yazıçı sözü) // Sovet ədəbiyyatşünaslığının aktual problemləri. Məqalələr məcmuəsi. Akademik M.A.Dadaşzadənin anadan olmasının 70 illiyinə həsr olunur. Redaksiya heyəti: M.Y.Quluzadə, Q.X.Qasımzadə, S.L.Lukyanova, K.A.Talıbzadə. Bakı: Elm, 1974, s. 293.

[3]Yenə orada, s.293.

psixoloji, fəlsəfi əsası olmayan subyektiv mülahizələrdən uzaqda dayanmağı bacarmalı, ədəbi prosesə təsir gücünü hifz edib saxlaya bilməlidir.

Dissertasiya işinin III fəsli "**Mətbuat, tənqid və ədəbi proses**" adlanır. I yarımfəsli "**Mətbuat və ədəbi tənqid**" Müstəqillik dövrünün ədəbi prosesinin formalaşmasında böyük nəzəriyyəçi Heydər Əliyevin ədəbi proses konsepsiyası həlledici rol oynamasından danışılır. O, Azərbaycanda hakimiyyətdə olduğu bütün dövrlərdə, xüsusilə də ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə dərindən maraqlanması, ədəbi-tarixi proses və onun nümayəndələrinin yaradıcılığından istiqlal məfkurəsinin hansı səviyyədə öz bədii- fəlsəfi əksini tapdığını sistemli şəkildə izləmişdir.

Tənqidin taleyi üçün məsuliyyət, ilk növbədə mətbuatın üzərinə düşür. Çünki tənqid institutlarda, kafedralarda, yaradıcılıq ittifaqlarının zal və kürsülərində yox, mətbuatda formalaşır. Bir çox hallarda bəzi ədəbi mətbuat yaxşı ədəbi tənqidi də şablonlaşdırır, yaradıcılıq axtarışlarının fərdi cizgilərini ümumi bir qəzet üslubu ilə malalayır. Xüsusilə başqa janrlar kimi, ədəbi tənqidin də əsas ağırlığını daşımalı olan jurnallarda ədəbiyyat mütəxəssislərinin toplanması, qrupbazlıq və ədəbiyyatı bir ləhcədə görmək meyili indi jurnal tənqidinin sağlam inkişafına ciddi mane olur, səylə onu cılızlaşdırır.

Məlum həqiqətdir ki, tənqid ədəbiyyatı, sənətin istiqamətini müəyyənləşdirmək, oxucu və bədii sənət faktı arasında etibarlı körpü rolunu oynamaq kimi ictimai bir vəzifənin daşıyıcısıdır. Bu böyük və məsul vəzifənin icraçısı kimi də tənqid həmişə diqqət mərkəzində olmalıdır. Onun özünün ideoloji istiqaməti, sənətkarlıq keyfiyyəti bizi düşündürməlidir. Xeyli müddət idi ki, tənqid yalnız ədəbiyyat haqqında fikir yürütməklə özü haqqında düşünməyi unutmuşdu, halbuki o öz təbiəti haqqında götür-qoy etməyəndə özünün ləyaqət və nöqsanlarına etinasız olur. Xeyli vaxt idi ki, Ümumittifaq, habelə milli respublikalardan tənqidin öz laboratoriyasına diqqəti tamamilə zəifləmişdi. Tənqidə dair kitab mətbuatda yalnız resenziya ilə qeyd olunur. Bu resseziya əməsini biz onun öz-özünü bəyənməməsi, özündən narazılığı kimi qəbul edirik. Hansı dövrün tənqidin zəifdirsə, deməli, o dövrün ədəbiyyatı zəifdir. Artıq çoxdan sübut olunmuşdur ki, bütün tarixi dövrlərdə tənqidin vəziyyəti bədii ədəbiyyatın səviyyəsini əks etdirib. Bizcə, bütün ədəbi mühit səlahiyyətsiz adamların ekrandan və radiodan, mətbuat səhifələrindən tənqidi sübutsuz-dəlilsiz nüfuzdan salmasına yol verməməlidir. Tənqidə ağıl öyrətmək yox, hətta əgər zəifdirsə, belə onun taleyi özün narahatlıq keçirmək lazımdır.

Bir sıra görkəmli nəzəriyyəçilər tənqidin yaranmasını mətbuatın meydana gəlməsi ilə əlaqələndirirlər. Mətbuat ədəbi tənqidin kürsüsü, onun özünü ifadə və təsdiq etməsi üçün verilmiş meydandır. Eyni zamanda bu meydan çoxqapılı müstəvidir. Yəni, ən fərqli baxış bucağından bu müstəviyə qədəm basmağa icazə var. Tənqidin taleyi üçün məsuliyyət ilk növbədə mətbuatın üzərinə düşür. Çünki tənqid institutlarda və kafedralarda, yaradıcılıq ittifaqlarının zal və kürsülərində yox, mətbuatda formalaşır.

Mövcud olduğu bütün epoxalarda, mətbuatın əsas vəzifələrindən biri, ədəbi tənqidlə ədəbi həyat və oxucu arasında sosial əlaqə yaratmaqdan ibarət olmuşdur. Bütövlükdə mətbuatın ədəbi sahənin inkişafına olan diqqəti həmişə ədəbi tənqidin formalaşmasına əsaslı stimul verib. Təəssüf doğuran cəhət ondan ibarətdir ki, bugünkü şəraitdə ədəbi həyatın qarışdırılması istiqamətində fəaliyyət göstərən mətbuat nümunələri də az deyil. Bəzən qəzetlər satış imkanlarını genişləndirmək məqsədilə zövqsüz, bayağı ədəbi nümunələrlə yanaşı, elə o nümunələrin səviyyəsində olan və daha çox tərifçi, eyni zamanda da inkarçı "tənqidi məqalələr" çap etmək yolunu tuturlar. Bir çox qəzetlər ədəbiyyat əlavələri buraxırlar ki, bu əlavələrin çoxu bilərəkdən, qəzetin satışın yönəli seçimi ilə əslində ədəbiyyata pis xidmət etdiklərinin fərqinə varmırlar. Deyək ki, "Kaspi", "525-ci qəzet"in ədəbiyyat əlavələrindən başqa əksər qəzetlərin bu yöndən olan səhifələri çox halda özünü doğrulda bilməyib, ədəbi-tənqidi, ədəbi-mədəni həyata elə də müsbət təsir göstərməyib.Filoloji fikir növü olan ədəbi tənqidin vəziyyəti, onun ədəbi prosesdəki rolu təkcə bədii ədəbiyyatın qaldırdığı problemlərdən, bədii axtarışların strategiyasından çox, əgər belə demək mümkünsə, dövrün jurnalistikasından da bu və ya digər şəkildə asılıdır. Milli Elmlər Akademiyasının müvafiq "Xəbərlər"indən tutmuş dövlət mətbuatına, "Kitablar aləmində" jurnalına qədər ədəbi tənqidin materiallarının nəşrinə geniş yer verən mətbuatın təşəbbüskarlığı razılıq doğurur. Məhz bu təşəbbüskarlığın nəticəsidir ki, ədəbi tənqiddə analitik təhlil qüvvətlənmiş, tənqidin üslubi siması əlvanlaşmış, təhlil və tənqid mədəniyyəti konkretləşmiş, ədəbi tənqiddə milli müəyyənliklə nəzəri başlanğıcın səmərəsi, sintezi meydana gəlmişdir.

Müasir mətbuat tənqidi dinamik saxlayır, onun ədəbi prosesə çevik müdaxiləsini təmin edir. Çağdaş ədəbiyyat kimi ədəbi tənqid də məhz mətbuatda yaranır. Hər ikisi ədəbi mətbuatın səhifələrində sınaqdan keçir, oxucu ilə təmasda olur, oxucu zövqündən ictimai rəy səviyyəsinə qədər inkişaf edir.

Bədii əsərin kitaba çevrilməsi nisbətən tez baş verirsə ədəbi tənqid xeyli gec kitab formatında çap olunur. Əgər belə demək mümkünsə,

mətbuat ədəbi tənqidə daha doğmadır. Əslində ədəbi tənqid ədəbi prosesə təsirini mətbuat vasitəsi ilə həyata keçirir.

Dissertasiya işinin III fəslinin II yarımfəsli **“Estetik meyarın formalaşmasında ədəbiyyatşünaslıq və ədəbiyyat nəzəriyyəsinin rolu”** adlanır.

Hər bir dövrün tənqidinin arsenalında ədəbiyyatşünaslığın – ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsinin tarixi naliyyətləri dayanır. Ədəbi tənqid bu naliyyətlərə istinad edərək: 1. Cari ədəbi prosesi təşkil və idarə edir; 2. Gələcək dövrlər üçün nəzəri bazaya çevrilir.

Ədəbiyyatşünaslığın özünəməxsus predmeti və vəzifəsi müəyyənləşdirililib. Onun predmeti, tədqiqat materialı bədii ədəbiyyatdır, bədii ədəbiyyatı yaradan, təşkil edən bədii əsərlərdir, bu əsərləri yaradan müəlliflərin həyatı və yaradıcılığıdır, onların görüşləri və şəxsiyyətləridir. Ədəbiyyatşünaslıq öz predmetini izah edir, onun mahiyyətini və tarixi inkişaf qanunauyğunluqlarını öyrənir. Bədii ədəbiyyat haqqında, onun spesifikası və inkişaf qanunauyğunluqları haqqında, o cümlədən bədii ədəbiyyatı tədqiqin prinsipləri və metodologiyası haqqında təlim olmaq etibarı ilə ədəbiyyatşünaslıq daim axtarışdadır. O daim dəyişir, inkişaf edir, yeni fərziyyələr və məktəblər hesabına öz fəaliyyət sahəsini genişləndirir, tarixilik və müasirliyin vəhdətində özünü, prinsiplərini təsdiq edir.

Ədəbi tənqid və nəzəriyyə bu prosesdə yazıçının başlıca yönəldici qüvvəsinə çevrilməli, yönəldici, səfərbəredici missiyasını gecikdirməməlidir. Hər bir yazıçının və şairin öz dövründə onun obyektiv tənqidçisi yetişməli, onun ictimaiyyət arasına çıxış yolunun arzuedilməz şəkildə hamarlanmasına etibarlı vəsilə olmalıdır. Təsadüfi deyil ki, bütün zamanlarda olduğu kimi, müasir tənqidin əsas problematikasını da daha çox bütün şairlər üzrə mənəvi-əxlaqi axtarışlar ədəbiyyatı müəyyən edir. Onun nailiyyətləri də, axtarış çətinlikləri də əsasən həmin istiqamətlə bağlıdır. Bütövlükdə isə tənqiddə sistemli təhlil, bədiilik, poetika və sənətkarlıq məsələlərinə olan maraq heç bir zaman öləziməməli, tənqidçi ilk növbədə yaxşı oxucu olmaq səlahiyyətinə sahib çıxmağın vacibliyini unutmamalıdır. Tənqidçi hər hansı ədəbi əsəri o zaman əhatəli təhlil və tənqid süzgəcindən keçirə bilər ki, o, həmin əsərin təkcə bədii strukturunu deyil, həm də tarixi bədii vəziyyətini fakt, sənət və vəsiqə linzasında canlandırmaqla əsl həqiqəti aydınlaşdıra bilsin. Üstəlik, təmkin, fikir üçün məsuliyyət hissi, əsərin, ədəbi hadisənin məğzinə, detallara və üslub sistemlərinə həssaslıqla yanaşa bilmək bacarığı ədəbi tənqidin və ədəbiyyatşünaslığın başlıca meyarı kimi ön planda olmalıdır. Bu baxımdan çağdaş ədəbi tənqidimizin aparıcı simalarından olan Vilayət

Quliyev, Nizami Cəfərov, Akif Hüseynov, Tehran Əlişanoğlu, Nizaməddin Şəmsizadə, Cahangir Məmmədli, Rəhim Əliyev, Şirindil Alışanlı, Kamal Abdulla, Vaqif Yusifli və başqalarının əməyini xüsusilə qeyd etmək olar. Firudin bəy Köçərlidən başlayaraq, H.Zeynallı, M.K.Ələkbərliyə, Mehdi Hüseynə, eyni zamanda, M.Arif, M.Cəfər, Cəfər Cəfərov, Kamal Talıbzadə, Əkbər Ağayevdən Əziz Mirəhmədova, Yaşar Qarayevə, eyni zamanda, Bəkir Nəbiyevdən başlayaraq, Aydın Məmmədova, Asif Əfəndiyevə, Elçin Əfəndiyevə, Şamil Salmanova, Nadir Cabbarova, Gülrux Əlibəyliyə və başqalara qədər olan tənqidçilərin ənənədən gələn estetik meyarın formalaşmasında xüsusi xidmətləri ayrıca qeyd olunmalıdır. Təəssüflə qeyd etmək lazımdır ki, bu sahəyə ötən əsrin 90-cı illərindən sonra gələn gənc tənqidçilərin yaradıcılığı bu və ya digər şəkildə tənqiddən şəxsi münasibətlərə, yarınmağa, məqsədli mülahizələrə daha çox meyl etməyə başladı. Demək olar ki, 90-cılar nəsli kimi tanınan tənqidçilərimiz üçün heç bir sistemli yaradıcılıq axtarışı meyarı, mövqe ardıcıllığı prinsipi formalaşmadı. Belə deyək ki, bu gün yazıçı Hüseynbala Mirələmov, şair Salam Sarvan, Elxan Zal Qaraxanoğlu haqqında ağızdolusu tariflər yazan, məruzələr edən Əsəd Cahangir ertəsi gün məhz həmin müəlliflərin uğurlarına kölgə salan ziddiyyətli məqalələrlə çıxış etdi. Bəsti Əlibəyli öz imkanlarından istifadə edərək ədəbi-tənqidi baxımdan ciddi nümunələr ortaya qoymaq əvəzinə ona yaxın olan çevrə ətrafında uzun-uzadı məqalələrlə çıxış etməyə başladı. Özünün ciddi tənqidçi imicini yazıçı-jurnalist Əli İldırımoğlunun yaradıcılığının bədii meyarlarını incələməyə sərf etdi. Sözügedən dönəmdən başlayaraq çox təəssüf ki, nəzəriyyə tənqid üçün bir sığınacaq mövqeyinə çevrilməyə başladı. Az qala unudulmağa başladı ki, nəzəriyyə bütün halları ilə ədalətli, normal tənqid üçün başlıca dayaq, onu ədəbi prosesin üfüqlərinə uçuran başlıca meyar, uçuş meydançası missiyasını yerinə yetirməlidir. Bununla belə, daha çox nisbətən yaşlı nəsil tənqidçilərinə istinad edərək demək olar ki, çağdaş ədəbi tənqidimizin perspektivli cəhətlərindən biri odur ki, o, özünün təşəkkül prosesində əldə etdiyi ümumi estetik meyarlarla kifayətlənmir, nəzəri ədəbiyyatşünaslığın nailiyyətlərinə istinad edərək həyatı və ədəbiyyatı idrak üçün meyarlarını təkmilləşdirir, yeni təhlil metodları, tədqiqat imkanları axtarır. Tənqidçi Təyyar Salamoğlunun, Rüstəm Kamalın və başqalarının simasında bu deyilənlər özünü daha qabarıq şəkildə büruzə verməkdədir.

Ədəbiyyatşünaslığın, ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsinin əldə olunmuş tarixi sınağından çıxması naliyyətlərini cari ədəbi tənqidin arsenalına gətirmək baxımından bu iki imzanı fərqləndirmək lazımdır. Biz

həm də bunları müstəqillik dövrü Azərbaycan tənqidinin formalaşmış istedadlı simaları hesab edirik. T. Salamoğlunun müasir Azərbaycan romanı haqqında, XX əsrin klassikləri, o cümlədən tənqidçilər, xüsusilə də müasiri olan tənqidçilər barəsində istiqlal məfkurəsinin tənqidə və tədqiqata tətbiq nümunələridir.

Rüstəm Kamal həm Azərbaycan nəzəri-estetik fikrinin, həm epos təfəkkürümüzün izah edə biləcək meyarlarının, həm də Avropa və rus – təhlil metodlarının çağdaş ədəbi prosesə uğurla tətbiq edir. Müxtəlif üslublarda, lakin eyni intellektual məcrada yazan bu tənqidçilərin uğurları, fikrimizcə iki başlıca cəhətlə bağlıdır: 1. Bədii mətni duymaq və tarixilik (zaman) kontekstində təhlil etmək; 2. Yüksək ədəbi-nəzəri hazırlıq – savad və intellekt. Bu isə bunlara ciddi tənqidçi – ədəbiyyat adamı olmaq səlahiyyəti qazandırır.

Ədəbi prosesin gedişi və inkişafı nəticəsində ədəbiyyat nəzəriyyəsi yeni forma və ifadə, texnologiya üstünlükləri kəşf edir, yazıçı dühasının novatorluq gücü ədəbiyyat nəzəriyyəsinə həm forma, həm də məzmun baxımından yeni material, tədiqat faktı verir və bunun nəticəsində nəzəriyyə sahəsi inkişaf edir, yeniləşir, çağdaş ədəbiyyatın yeniliklərinə nüfuz edə bilmək gücünə sahiblənir. Bu müstəvidə yeni axtarış sahələri əldə edən ədəbiyyat nəzəriyyəsi estetik meyarın formalaşmasında başlıca rol oynayır, ədəbi prinsiplərin vəhdətinin bütün zamanlar çün nə dərəcədə aktual olmasının gerçəkliyini özündə ehtiva etmiş olur. Bunun nəticəsi olaraq ədəbiyyat nəzəriyyəsi bədii-ictimai fikir örnəklərini ümumi mühakimələrlə yox, ədəbiyyatın və ədəbi texnologiyanın məzmun və forma etibarı ilə təhlili əsasında şərh edir.

Ədəbiyyat nəzəriyyəsi ədəbiyyat tarixindən fərqli olaraq öz müddəalarını hər cür ədəbiyyatdan yox, əsasən klassik irsə daxil olan ən kamil bədii nümunələrin təhlil və ümumiləşməsindən əldə edir. Ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid ədəbiyyatşünaslıq elminin tərkib hissələri kimi bir kontekstdə yaşayır və bir-birilərinə təsir göstərirlər.

Dissertasiyanın “**Nəticə**” hissəsində araşdırma zamanı irəli sürülmüş əsas müddəa və tezislər ümumiləşdirilərək belə bir yekun qənaət ifadə edilir ki, Müstəqillik dövrü ədəbi tənqiddə yeni meyar axtarışlar dövrü idi. Sovet dövründə (1920-1990) tənqid ədəbiyyatı daha çox sosioloji meyarlarla təhlil edib qiymətləndirirdi.

Müstəqillik dövrünün tənqidi XX əsr tənqidinin, o cümlədən sovet dövrü tənqidinin Millilik amilinə əsaslanan ən səmərəli ənənələrindən, ədəbiyyatın bədiilik təcrübəsi ilə təsdiqlənən nəzəri təcrübəsindən istifadə edərək tənqidin yeni meyarlarının təşəkkülünə nail oldular.

Yeni tənqidin arsenalında M.F.Axundzadə, F.Köçərli, A.Sur, B.Çobanzadə, Ə.Nazim, H.Zeynallı, Ə.Abid, S.Mümtaz, M.Arif, M.Rəfili, Məmməd Cəfər, C.Cəfərov, K.Talıbzadə, B.Nəbiyev Q.Xəlilov, Y.Qarayev, Elçin, A.Hüseynov... kimi görkəmli tənqidçilərin ən yaxşı əsərləti var idi.

Onların ənənələrini yeni tarixi şəraitdə davam etdirərək 80-ci illərdən bəri formalaşan nəsil – N.Cabbarov, K.Abdullayev, V.Yusifli, R.Əliyev, N.Şəmsizadə, Ş.Alışanlı, N.Cəfərov, A.Əmrahoğlu müstəqillik dövrünün tənqidini formalaşdırdılar.

Bu nəslin əsas xidməti azərbaycançılıq məfkurəsinə əsaslanaraq tənqidin metodologiyasını, onun nəzəri – metodoloji bazasını yaratmaları idi.

Müstəqillik dövrünün tənqidi ədəbiyyatı onun mənsub olduğu xalqın mənafeləri baxımından, çağdaş ədəbi proses ənənə və varislik əsasında öyrənməyin yeni modellərini hazırladı. Şərq, o cümlədən Azərbaycan nəzəri estetik təcrübəsinə əsaslanmaqla dünya ədəbiyyatı klassiklərinin irsində olan ən mütərəqqi cəhətlərin bilavasitə öz xalqının maraqları mövqeyindən öyrənməyin metodologiyasını hazırladı. Bu prosesdə ədəbi tənqidin nəzəri – estetik meyarlarında Şərq və Qərb dəyərlərinin sintezi başlıca rol oynadı.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi işlərində əksini tapmışdır:**


1. Ədəbi proses və tənqidin estetik təbiəti / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları. I cild. Bakı: 2013, s.322-323.
2. The role of the literary criticism in the Azerbaijan literature // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, 2013, №3, s.151-153.
3. Yazıçı tənqidi və ədəbi proses / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları. II cild. Bakı: 2013, s. 111-113.
4. Yazıçı tənqidinin təhlili // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, 2014, №1, s.107-111.
5. Müstəqillik dövründə Azərbaycan ədəbi tənqidində yeni meyar axtarışları // Axtarışlar. AMEA-nın Naxçıvan bölməsi. İncəsənət dili və ədəbiyyat İnstitutu. Naxçıvan: 2014, cild 4, №3, s.97-100.
6. Литературная критика как средство продвиженияхудожественной культуры // Ученые записки Таврическое национального университета им. В. И. Вернадского. Симферополь: 2014, том 27(66), №3, с. 450-455.
7. Роль критики в литературном процессе в Азербайджане в годы независимости / Международная научно-практическая конференция 24-25 октября 2014 года. Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Пятигорск: 2014. с.127-128.
8. Tənqidçi şəxsiyyəti və ədəbi proses / Azərbaycan xalqının Ümummi Lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş Gənc Tədqiqatcıların IV Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, 29-30 Aprel 2016-ci il. Bak Azərbaycan, 2016, s.1011-1012.
9. Estetik meyarın formalaşmasında ədəbiyyat nəzəriyyəsinin rolu // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, 2016, №1, s.82-85.
10. Bədii əsər, tənqidçi və oxucu // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, 2016, №3, s.76-81.
11. Ədəbi prosesin strukturunda tənqidin yeri // Ədəbiyyat məcmuəsi. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi əsəri, 2016, №2, s. 363-368.

**Aygun Nofer gizi Talibova**

**The role of the Azerbaijan literary-criticism in the literary process in the period of Independence**


## SUMMARY

The dissertation is dedicated to the investigation of the role of the Azerbaijan literary-criticism in the literary process in the period of Independence. The texts created in the Independence years are drawn into research in this dissertation. The primary indications of the independence years, its turbulent and dramatic character, tendency of search and sense are obvious in these texts.

The aim of this dissertation work is to show the role of the criticism in the contemporary literary process.The literary criticism had always directly influenced the development of literature in all periods and played an important role in this development.

The first chapter entitled "**Conception of literary criticism: its structure and main components**" analyses and investigates the structure of the literary process, its components as a master personality and literary proses, artistic work, critic and reader.

The subject matter of the second chapter entitled "**Literary process and new criteria investigations**" investigates the aesthetic criteria and artistry factor, critic personality and literary process.

The third chapter is "**The press, criticism and literary process**". The press and literary criticism, the role of literature of science and theory of literature in the formation of the aesthetic criteria is widely investigated in this chapter.

The dissertation traces the development of the literary criticism in the Independence years of Azerbaijan, defines all aspects of literature and their origins and social ties. It studies the distinctive features of word-image artistic thinking, the nature and functions of artistic creativity, and the general and local law like regularities of literary history.

The research allows to come to such a conclusion that the role of literary criticism in the Independence period in the literary process is very significant.

Dissertation is completed with the list of used literature written in the Azerbaijani and Russian languages.

**Айгюн Нофер кызы Талыбова**

**Роль литературной критики Азербайджана в литературном процессе в период Независимости**


## РЕЗЮМЕ

Диссертация посвящена исследованию роли литературной критики Азербайджана в литературном процессе в период Независимости. Тексты, созданные в годах Независимости, вовлечены в исследование в этой диссертации. Основные признаки лет независимости, их бурного и драматического характера, тенденции поиска и смысла очевидны в этих текстах.

Цель этой диссертации состоит в том, чтобы показать роль критики в современном литературном процессе. Литературная критика всегда непосредственно влияла на развитие литературы во все периоды и играла важную роль в этом развитии.

Первая глава, названная **"Концепция литературной критики: ее структура и главные компоненты"** анализирует и исследует структуру литературного процесса, такие его основные компоненты, как индивидуальность и литературная проза, художественный стиль, критик и читатель.

Тема второй главы, названной **"Литературный процесс и новые расследования критериев"**, исследует эстетические критерии и фактор мастерства, индивидуальность критика и литературный процесс.

Третья глава называется **"Пресса, критика и литературный процесс"**. Пресса и литературная критика, роль литературоведения и теории литературы в формировании эстетических критериев широко исследованы в этой главе.

Диссертация прослеживает развитие литературной критики в годах Независимости Азербайджана, определяет все аспекты литературы и их происхождение и социальных связей. Изучает отличительные особенности взгляда на изображение слова, природу и функции креативности и общие и внутренние закон регулярности истории литературы.

Исследование позволяет придти к такому заключению, что роль литературной критики в период Независимости в литературном процессе очень значительная.

Диссертация закончена списком используемой литературы, написанных на азербайджанском и русском языках.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

**AMEA-nın mətbəəsində çap olunmuşdur**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ**

***На правах рукописи***

**АЙГЮН НОФЕР кызы ТАЛЫБОВА**

# РОЛЬ ЛИТЕРАТУРНОЙ КРИТИКИ АЗЕРБАЙДЖАНА В ЛИТЕРАТУРНОМ ПРОЦЕССЕ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**5715.01–Теория литературы, литературная критика и анализ**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ-2017**